# XANƏNDƏ KİMİ SALYANDA YETİŞMİŞDİ



Rababə Xəlil qızı Muradova 1933-cü il mart ayının 22-də Güney Azərbaycanın Ərdəbil şəhərində anadan olmuşdur. Uşaqlıqdan musiqiyə sonsuz həvəsi, istedadı gözəl, təsirli səsi ilə seçilmişdir.

Xəlil kişi 1946-cı Salyana gəlmiş və ailə 5 il bu şəhərdə yaşamışdır. Şəhərin yaşlı sakinləri yaxşı xatırlayırlar, o zaman Salyanda yan-yana, ikimərtəbəli bina varmış. Xəlil kişinin ailəsi həmin binaların birində I mərtəbədə məskunlaşmışdı. Xəlil kişi əsl dinəhliydi, şəriət qanunları və dini elmlərdən xəbərdar insan adam idi. O, daim şəhər məscidində olardı. Salyan camaatı öz xislətinə sadiq qalaraq bu ailəyə qucaq açmış, onlara himayədar olaraq, daim xətirlərini əziz tutmuş və onların özlərini qərib hiss etmələrinə imkan verməmişdi. Rübabənin bacısı Mahrux Salyandakı bir neçə il Salyandakı məşhur 2 saylı orta məktəbdə oxumuşdu. Xəlil kişi Əlibayramlı (indiki Şirvan) şəhərinin məscidinə axund təyin olunduğu üçün, o, ailəsilə ora köçmüş və ömrünün sonuna qədər orada yaşamışdı. Deyilənə görə Xəlil kişi Quranı çox gözəl avazla oxuyar və dinləyənlər təsirli hala düşərlərmiş.

Rübabəgilin bir qardaşı da var idi. Boya-başa çataraq Əlibayramlıda yaşayırdı.

Bu tale işidir, Allahın yazdığıdır, əgər Rübabə xanım Ərdəbildə qalsaydı, o, nəinki məşhur, ümumiyyətlə xanəndə olmayacaqdı. Ərdəbil qatı dindar şəhərdir, kim idi qız xeylağına sənətlə məşğul olmağa icazə verən. Yetkinlik yaşa çatan kimi ərə veriləcək və evdar qadın olacaqdı. Onların Sovet Azərbaycanında yaşaması daha bir istedadlı xanım xanəndənin yetişib parlamasına, milli musiqimizə töhfələr verməsinə və opera səhnəsində bir-birindən maraqlı, uğurlu və gözəl obrazlar yaratmasına imkan verdi.

1951-1956-cı llərdə Birinci Dövlət Musiqi Məktəbində Seyid Şuşinskinin muğam sinfində təhsil almışdır. 1954-cü idən ömrünün sonlarına qədər M.F.Axundov adına Akademik Opera və Balet Teatrında solist, sonralar məşqçi-pedaqoq olmuşdur. Burada Leyli, Əsli, Xanəndə qız (Ü.Hacıbəyli “Leyli və Məcnun”, “Əsli və Kərəm”), Şahsənəm (Z.Hacıbəyov “Aşıq Qərib”), M.Maqomayev “Şah İsmayıl”), Sənəm (Ş.Axundova”“-Gəlin qayası”)obrazlarını yüksək səviyyədə, nümunəvi olaraq yaratmışdır. Ona 6 noyabr 1956-cı ildə əməkdar artist, 29 aprel 1971-ci ildə xalq artisti fəxri adı, 9 iyun1959-cu ildə “Şərəf nişanı” ordeni verilmişdir.

R.Muradova 1983-cü il avqustun 28-də vəfat etmiş, Yasamal qəbristanında dəfn edilmişdir.



*Əhsən Rəhmanlı,*
***sənətşünaslıq üzrə fəlsəfə doktoru***

Kredo .-2022.- 21 sentyabr.- S.16.